# "Teatr mənim həyatımdır"

## 9 yaşlı beynəlxalq müsabiqələr qalibi böyüyəndə həkim olmaq istəyir



**Sifai SƏFƏROVA**

Həmin gün Selcanın gözünə yuxu getməyib. Bir neçə gündən sonra lap uzaqlarda böyük auditoriya qarşısında nümayiş etdirəcəyi tamaşaları xəyalında canlandırıb, ifa edəcəyi mahnıları dəfələrlə zümzümə edib. Beləcə, nə vaxt yuxuya getdiyini də heç bilməyib. Anası Aynurə xanımın səsinə ayılan qızcığaz əl-üzünü yuyaraq mətbəxə keçib, yemək yeyəndən sonra axşamdan hazırladığı əşyaları nəzərdən keçirərək əl çantasına yerləşdirib. Yola düşməyə az qalmış həyəcanı daha da artıb. Çünki nə az, nə çox, düz 10 gün o, yaxınlarını görməyəcək və getdiyi yerdə ilk "imtahan"ını verəcəkdi. Olduqca məsuliyyətli yarışmada - Makedoniyanın Struqa şəhərində keçirilən, İsrail, Almaniya, Bolqarıstan, Rusiya, Ukrayna, Malta, İspaniya, İtaliya və digər dövlətlər daxil olmaqla 27 ölkədən 400-ə yaxın təmsilçinin qatıldığı festivalda ölkəmizi bu qızcığaz təmsil edib və qələbə ilə vətənə dönüb.

Selcan Müseyibova 2008-ci ildə Bakıda anadan olub. Hazırda Heydər Əliyev adına liseyin 4-cü "a" sinfində təhsil alır. Dərslərini əla qiymətlərlə oxuyur. Şəkli "Şərəf lövhəsi"ni bəzəyir. Sinif rəhbəri Rüxsarə Ağayeva Selcanı sinfin fəxridir, deyir. Qeyri-adi istedad sahibi olan yeniyetmə beynəlxalq müsabiqələr qalibi və həm də istedadlı aktrisadır. Paytaxtdakı 22 nömrəli musiqi məktəbində vokal dərsləri alır. Bu gün ömrünün əsrarəngiz, nağıllı günlərini yaşayan Selcan Müseyibova ilə söhbətimiz gözlədiyimdən də şirin alındı. Sanki 9 yaşlı bir yeniyetmənin deyil, artıq sənət yollarında öz dəst-xəttilə seçilən bir musiqiçinin söhbətinin sehrinə düşmüşdüm.

### "Ən yaxşı səs"

Mən Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı nəzdindəki "Oyuq" teatr studiyası"nın üzvüyəm. 2014-cü ildə Bolqarıstanın Varna şəhərində uşaqlar arasında keçirilən "Golden Sparkles European Music" festivalına qatılanda çox həyəcan keçirdim. Elə sanmayın ki, qorxdum, əsla yox. Sözləri və musiqisi Məryəm Əlibəyliyə məxsus olan "Oxuyaq nəğmələri" adlı mahnını böyük həvəslə ifa etdim. Festival günlərində 2 dəfə səhnəyə çıxaraq, kiçik yaşlı iştirakçılar arasında "Ən yaxşı səs" nominasiyasına layiq görüldüm. Onda 5 yaşım hələ təzəcə tamam olmuşdu. Münsiflər təəccüblə mənə baxıb çiyinlərini dartdılar. Ölkəmizi bu festivalda münsiflər heyətində Hüseyn Cavadzadə təmsil edirdi. Orada Bolqarıstandan, İtaliyadan, Maltadan, İspaniyadan, Rusiyadan, Almaniyadan, Ukraynadan və sair ölkələrdən istedadlı və səhnə təcrübəsi olan uşaqlar qatılmışdılar. Mən yaşca onlardan çox kiçik olsam da qalib gələcəyimə əmin idim.

### Hər obrazda yaşamağı bacarıram

Artıq 9 yaşım var. Teatr səhnəsində bir-birindən maraqlı obrazlar yaratmaqla tamaşaçı rəğbətini qazanmağa çalışıram."Oyuq" teatr studiyasının tərkibində hazırlanan tamaşalarda Maşa, Qala, Şahzadə Ella, Göyçək Fatimə kimi obrazları məharətlə canlandırmışam. Səhnəni çox sevirəm, hər obrazda yaşamağa çalışıram. Buna görə də bütün obrazların üzərində çox işləyirəm. 2017-ci ilin aprelində Azərbaycan Dövlət Kukla Teatrında Dünya Autizm Məlumatlandırma Gününə həsr olunmuş tədbir keçirilirdi. Mən də orada çıxış etməli idim. Tədbir "Əlimdən tut" adlı sözsüz tamaşanın nümayişi ilə başladı. Autizm sindromlu uşaqlar ilk dəfə səhnəyə çıxaraq öz fikirlərini hərəkətlərin dili ilə tamaşaçılara çatdırdılar. Həmin tamaşada mən autizm xəstəliyinə tutulmuş uşaq rolunu ifa etdim. Xəstə uşaq rolunu oynamaq məni çox kövrəltdi. Tanrı bütün uşaqlarımıza kömək olsun. Onların hamısı bizim dostlarımızdır. Bu tədbir mənə və dostlarıma autizm xəstəlikləri olan uşaqlarla görüşmək üçün şərait yaratdı. Bunun üçün teatr studiyasının yaradıcı heyətinə təşəkkürümü bildirirəm. "Əlimdən tut" tamaşasını biz üç günə hazırladıq və göstərilən etimadı, müəllimlərimizin ümidlərini doğrultduq. Tamaşaçı alqışları dediklərimi səhnədə bir daha təsdiqlədi.

### Fəxri fərman və diplomlar

Yeri gəlmişkən qeyd edim ki, "Oyuq" teatr studiyasında hazırlanan tamaşalarla beynəlxalq festivallarda iştirak edirik. Studiyanın rəhbəri, ssenarist Səidə Haqverdiyevanın üzərimizdə əməyi əvəzsizdir. O, bizə səhnədə davranış qaydalarını, nizam-intizamı, danışıq və dil normativlərini dolğun mənimsədib. Yaradıcı heyət ilə Makedoniyada, Bolqarıstanda, Türkiyədə, Rusiyada, İranda və bir çox başqa ölkələrdə beynəlxalq müsabiqələrdə öz bacarıq və istedadımızı nümayiş etdirərək fəxri fərman və diplomlara layiq görülmüşük.

### Tamaşaya görə Qran-pri qazandıq

2015-ci ildə Sankt-Peterburqda uşaq və yeniyetmələrin "Caz karuseli" adlı musiqi və caz festivalında iştirak etdim."Cırtdanın dostları" adlı tamaşanı nümayiş etdirdik və eyni zamanda mahnılar da ifa etdik. Tamaşaya görə Qran-pri, mahnıya görə "Ən yaxşı səs nominasiyası"nın qalibi olduq. Dostlarım Aylin, Aysu, Nuray, Razim, Miryaqub və başqaları da mənimlə idi. Sevincimizin hədd-hüdudu yox idi. Qanadım olsaydı təyyarədən tez uçub gələrdim paytaxta ki, sevincimi müəllimlərimlə, dostlarımla tez bölüşüm. Vətənpərvərlik mövzusuna həsr olunan mahnıları çox sevirəm. Ötən ilin oktyabrında dostlarımla birlikdə "Ordumuzun igidləri" adlı mahnını ifa etdik. İfamız çox gözəl alındı. Hətta bu mahnıya klip də çəkildi. Mahnının sözləri Cəmilə Allahverdiyevaya, musiqisi isə Gövhər Həsənzadəyə məxsusdur.

### Bir neçə serialda çəkilmişəm

Bir neçə filmlərdə də rol almışam. "Bir ovuc sonsuzluq", "Ər quyusu" və "28 İyun" seriallarında müxtəlif rolları canlandırıram. "Ər quyusu" filmi ürəyimcədir. Çünki biz bu filmi çəkmək üçün müəllimlərimizlə bölgələrə səfər etdik. Gündəlik həyatda dostlarımla necə oynayıb, vaxt keçirirdiksə filmdə də elə edirdik. Bu filmdə sevdiyim insanlarla bir yerdə oldum. Filmin Qala gecəsinə də iştirakçı kimi qatıldım. Qala gecəsi çox maraqlı keçdi. Biz Bakıda Qala gecəsindən sonra Mingəçevirə və Gəncəyə yola düşdük. Orada bizi çox gözəl qarşıladılar. Bir sözlə, teatr mənim həyatımdır. Amma böyüyəndə həkim olacağam, özü də uşaq həkimi, çünki uşaqları ancaq sağlam görmək istəyirəm.

### Həmin gün hamıdan çox məktəbə tələsən mən idim

Sentyabrın 15-də "Bilik Günü"ndə bəlkə də hamıdan çox məktəbə tələsən mən idim. Həmin gün müəllimimə rəngli boyalarla çəkdiyim rəsmləri göstərməyə, öyrəndiyim nağılları, tapmacaları, Xəzər televiziya kanalında yayımlanan "Bizim gün" verilişindəki çıxışlarımı, uğurlarımı söyləməyə tələsirdim. Nəhayət, səbirsizliklə gözlənilən an yetişdi və zəng çalındı. Anamın əlindən çantamı alıb, sən qayıt, mən özüm gələrəm, - söylədim. Sevincimdən nə edəcəyimi bilmirdim, tez uşaqlara qoşulub evimiz qədər mənə doğma olan məktəbə daxil oldum.